# Prezidentin köməkçiləri və nazirlər STEAM Azərbaycan Festivalında





Dekabrın 5-də Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, elm və təhsil naziri Emin Əmrullayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, mədəniyyət naziri



Adil Kərimli, müdafiə sənayesi naziri Vüqar Mustafayev Bakı Ekspo Mərkəzində olublar.

AZƏRTAC xəbər verir ki, qonaqlar SAF 2023 - Beynəlxalq STEAM Azərbaycan Festivalı çərçivəsində keçirilən yarışların gedişatı ilə tanış olub, iştirakçılara uğurlar arzulayıblar.

Festival çərçivəsində təşkil edilən "İnnovativ layihələr" sərgisi ilə yaxından tanış olan qonaqlara məlumat verilib ki, festivalın final mərhələsində 11 ölkəni təmsil edən 868 yerli, 159 xarici iştirakçı yarışır.

Qeyd edək ki, festival dekabrın 8-dək davam edəcək.

azerbaijan-news.az

Azərbaycan.- 2023.- 6 dekabr, № 266.- S.2.